# SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK ÜZRƏ

## QLOBAL SİYASƏT



COMPASS plus

## MƏZMUN

**Bu siyasət Carlsberg Group-un bütün fəaliyyət sahələrində Sağlamlıq və Təhlükəsizliyin idarə olunmasına dair əsas yanaşmanı formalaşdırır. Siyasətin məqsədi riskləri qabaqcadan müəyyən edib aradan qaldırmaq və ya minimuma endirmək, iş qəzaları və peşə xəstəliklərinin, eləcə də istehsalat qəzalarının qarşısını almaq, eyni zamanda fəaliyyət göstərdiyimiz icmalarda insanların təhlükəsizliyini və rifahını qorumaqdır.**

## ÖHDƏLİKLƏRİMİZ

Carlsberg Group fəal şəkildə insanların sağlamlığını və rifahını qorumaq, sağlam və təhlükəsiz iş mühiti yaratmaq, eləcə də aktivlərinin və ətraf mühitinin ən yüksək səviyyədə qorunmasını təmin etmək üçün proaktiv şəkildə çalışır. Qrup hər zaman sıfır qəza mədəniyyətini təşviq etməyə çalışır və fəaliyyətləri çərçivəsində, o cümlədən istehsalat prosesləri və əməyin mühafizəsi ilə bağlı potensial risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və nəzarətdə saxlanılması üçün bütün müvafiq tədbirləri həyata keçirir.

## BU SİYASƏT KİMLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULUB?

Bu siyasət Carlsberg Group-un müəssisələrində və kənar obyektlərdə vəzifələrini yerinə yetirərkən "Carlsberg Group" tərəfindən idarə olunan bütün müəssisələrin bütün əməkdaşlarına qlobal miqyasda tətbiq olunur. Bu həmçinin, Carlsberg Group müəssisələrində işləyən podratçılara da aiddir. Carlsberg Group mövcud birgə müəssisələrdə idarəedici hüquqlara malik olmayan səhmdar kimi iştirak etdikdə, digər səhmdar(lar) bu siyasətin "Group" üçün əhəmiyyəti barədə xüsusi olaraq məlumatlandırılmalı və eyni siyasəti və ya oxşar standartı birgə müəssisəyə tətbiq etməyə təşviq edilməlidir. Yeni azlıqların iştirakı ilə birgə müəssisənin yaradılması nəzərdə tutulduğu hallarda, Carlsberg Group digər səhmdar(lar)ın bu siyasəti və ya oxşar standartı birgə müəssisə üçün qəbul etməsini təmin etməyə çalışacaq.

### BU SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

Carlsberg Group-un sıfır qəza konsepsiyası təhlükəsizlik liderliyi, məsuliyyət və proaktiv risklərin idarə edilməsi mədəniyyətinə əsaslanır. Siyasətin əsas prinsipləri aşağıdakılardır:

1. **Semper Ardens:** Davamlı təkmilləşmə ruhu yalnız qaydalara riayət etməklə kifayətlənməyib, işin hər sahəsində mükəmməlliyə doğru irəliləmək və daha yüksək standartlar yaratmaqdır

2. **Təhlükəsizlik hər şeydən üstündür:** Şəfqət hissi və pozitiv enerji ilə insanlara rəhbərlik etmək və onları doğru istiqamətə yönəltmək

3. **İnklüziv təhlükəsizlik mədəniyyəti:** hər kəsin fikri vacibdir və hər kəs özünü və başqalarını qorumaq üçün məsuliyyət daşıyır



# TƏLƏBLƏR

## 1.SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK ÜZRƏ İDARƏETMƏ SİSTEMİ

1.1. Carlsberg Group-un müəssisələri bu siyasətin əhatə dairəsində ISO 45001 standartına uyğun olaraq sertifikatlaşdırılmış sağlamlıq və təhlükəsizlik üzrə idarəetmə sisteminə malik olmalıdır.

1.2. Qlobal səviyyədə ardıcılıq və effektivliyi artırmaq məqsədilə çoxsaylı müəssisələri əhatə edən inteqrasiya olunmuş sistemlər (məsələn, Sağlamlıq və Təhlükəsizlik, Ətraf Mühit və Keyfiyyət) təşviq edilir.

## 2.SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİYİN TƏŞKİLİ

2.1. Sıfır qəza mədəniyyətini gücləndirmək məqsədilə Carlsberg Group yerli sağlamlıq və təhlükəsizlik təşkilatları yaradır və bu təşkilatlar bütün müvafiq əməkdaşlara professional məsləhət xidmətləri təmin edir.

## 3.HADİSƏLƏRİN HESABATI VƏ TƏHLİLİ

3.1. Bütün müvafiq sağlamlıq və təhlükəsizlik hadisələri, o cümlədən iş fəaliyyəti zamanı baş verən xəsarətlər və xəstəliklər, eləcə də istehsalat prosesləri ilə bağlı təhlükəsizlik hadisələri yerli qanunvericiliyə və Carlsberg Group-un standart və prosedurlarına uyğun olaraq qeyd edilməli, analiz edilməli və paylaşılmalıdır. Hadisələrin qəsdən və bilərəkdən gizlədilməsi qəbuledilməzdir və intizam tədbirlərinə səbəb ola bilər.

3.2. Rəhbərlik bildirilən hadisələrin dəqiq qeydlərini aparmalı, onların düzgün təsnif edilməsini, bildirilməsini, çatdırılmasını, təhlil edilməsini və izlənilməsini təmin etməlidir.

3.3. Rəhbərlik hadisənin nəticələrini məhdudlaşdırmaq və onun təkrarlanmasının qarşısını almaq üçün müvafiq tədbirlərin görülməsini təmin etməlidir.

## 4.UYĞUNLUQ

4.1. Carlsberg Group-un bütün törəmə şirkətləri milli və yerli qanun və qaydalara, habelə bu siyasətin müddəalarına, zərərin qarşısının alınması üzrə Group standartlarına və Sağlamlıq və Təhlükəsizlik üzrə Group standartlarına riayət etməlidirlər.

4.2. Bu siyasətlə milli qanunlar və ya digər tətbiq olunan standartlar arasında hər hansı ziddiyyət yaranarsa, daha sərt qaydalar tətbiq ediləcək. Hər hansı bir şübhə yaranarsa, məsələ Group-un Sağlamlıq və Təhlükəsizlik bölməsi və Hüquq bölməsi tərəfindən birgə həll edilməlidir.

## 5. HƏYATİ VACİB QAYDALAR

Həyati vacib qaydalar ciddi həyati təhlükələrlə bağlı fəaliyyətlər üçün iş üsullarıdır və Carlsberg Group-un tarixində baş vermiş ciddi və/və ya ölümcül hadisələrə və ya ümumi sənaye təcrübəsinə əsaslanır.

5.1. Bütün işçilər Həyati vacib qaydalara hər zaman riayət etməlidirlər. Qaydaların qəsdən və məqsədli şəkildə pozulması intizam tədbirlərinə, o cümlədən əmək müqaviləsinin ləğvi kimi nəticələrə səbəb ola bilər.

| **Carlsberg-də Həyati vacib qaydalar** | |
|---|---|
| **LSR1** | Həm müəssisə ərazisində, həm də yollarda yol hərəkəti qaydalarına həmişə əməl edin |
| **LSR2** | Həmişə Lockout/Tagout (LOTO) prosedurlarına riayət edin |
| **LSR3** | Heç vaxt maşınların təhlükəsizlik qoruyucularını və bloklayıcılarını zədələməyin |
| **LSR4** | Həmişə hündürlükdə işləmə prosedurlarına əməl edin |
| **LSR5** | Həmişə qapalı məkana giriş prosedurlarına əməl edin |

## 6.FÖVQƏLADƏ HALLARLA BAĞLI PLANLAŞDIRMA VƏ CAVAB TƏDBİRLƏRİ PLANI

6.1. Carlsberg Group-un bütün müəssisələrində fövqəladə hallara cavab prosedurları hər il müəyyən edilməli, saxlanılmalı və sınaqdan keçirilməlidir. Bu prosedurlar müəssisənin işçilərinə və ətraf icmalara təsirini minimuma endirmək üçün fövqəladə hallar zamanı görüləcək müvafiq tədbirləri təsvir etməlidir.

6.2. Podratçılar və Carlsberg Group müəssisələrini ziyarət edən ictimaiyyət nümayəndələri də daxil olmaqla bütün müvafiq işçilərə fövqəladə hallar üzrə təlimatlar verilməli və təlimlər təşkil edilməlidir.

6.3 Carlsberg Group-un müəssisələri yerli icmalar və onların fövqəladə hallar xidmətləri ilə əlaqə saxlamalı, icma səviyyəsində cavab tədbirlərini adekvat şəkildə planlaşdırmaq üçün onlara müvafiq məlumat verməlidir.

6.4. Fövqəladə hal ssenariləri böhran ssenarilərinə çevrilə bilər. Carlsberg Group-un Böhran İdarəetmə Siyasəti (CGCMP) və prosedurları böhran idarəetmə proseslərinin strukturunu və tələblərini təsvir edir.

## 7. LİDERLİK VƏ İŞTİRAK

Biznesin idarə olunmasının ayrılmaz hissəsi kimi, bütün səviyyələrdə menecerlər güclü liderlik və etibarlılıq nümayiş etdirməklə iş yerində sağlamlıq və təhlükəsizliyin idarə olunmasına görə məsuliyyət daşıyırlar. Onlar nümunə olmalı və işçilərin Sağlamlıq və Təhlükəsizlik proqramlarında və təşəbbüslərində fəal iştirakını təmin etməlidirlər. Eyni zamanda, işçilərdən bu fəaliyyətlərdə iştirak etmələri və davamlı sıfır qəza mədəniyyətinə töhfə vermələri gözlənilir.

7.1. Bütün rəhbər vəzifəli şəxslər görülən işləri mütəmadi olaraq müşahidə etməli və komandalarına rəy bildirməli, təhlükəsiz davranışları qiymətləndirməli, təhlükəli şərait və davranışları isə aradan qaldırmalıdırlar.

7.2. İşçilər aşağıdakı hüquqlara malikdir:

- davam etməyin kifayət qədər təhlükəsiz olmadığını hesab etdikləri halda, səlahiyyətli şəxs tərəfindən müvafiq risk nəzarəti tədbirləri görülənə qədər istehsal, malların anbarda saxlanılması və paylama fəaliyyətlərini və/və ya hər hansı işi müvəqqəti olaraq dayandırmaq;
- iş mühitində mövcud olan təhlükəli şərait barədə rəhbərliyə məlumat vermək;
- müşahidə etdikləri hər hansı təhlükəli davranışa etiraz etmək.

7.3. Bütün müvafiq müəssisələrdə təhlükəli şəraitin bildirilməsi və həmin təhlükələrin aradan qaldırılması üçün görülən tədbirlər ilə birlikdə və əlaqəli şəkildə işçilərin davranışlarının müşahidə edilməsi və onlara rəy verilməsi üzrə proqramlar tətbiq olunmalıdır.

7.4. Bütün müəssisələrdə işçilər, podratçılar və digər maraqlı tərəflərlə sağlamlıq və təhlükəsizlik məsələləri ilə bağlı aktiv ünsiyyət qurmaq üçün sistemlər mövcud olmalıdır. Zəruri hallarda, tapşırıqların təhlükəsiz şəkildə yerinə yetirilməsinə hazır olmalarını təmin etmək məqsədilə maarifləndirmə və təlimlər keçirilməlidir.

## 8. PODRATÇILARIN İDARƏEDİLMƏSİ

8.1. Təchizatçıların və podratçıların seçilməsi proseslərində sağlamlıq və təhlükəsizliyin idarə olunması məsələləri hər zaman nəzərə alınmalıdır. Müqavilələrdə yerinə yetirilməli olan Sağlamlıq və Təhlükəsizlik tələbləri açıq və dəqiq şəkildə göstərilməlidir.

8.2. Carlsberg Group-un müəssisələrinə daxil olan podratçılar və digər üçüncü tərəflər öz tapşırıqlarını təhlükəsiz şəkildə icra etmək üçün kifayət qədər müvafiq sahə üzrə məlumatlı olmalı və təlim keçməli, həmçinin lazımi avadanlıqla təmin edilməlidirlər.

8.3. Podratçılar Carlsberg tərəfindən idarə olunan ərazidə olarkən Carlsberg Group-un bütün tətbiq olunan qaydalarına və prosedurlarına riayət etməlidirlər.

# QAYDA POZUNTUSU NECƏ BİLDİRİLMƏLİDİR

Siz siyasətlərimizə uyğunluqla bağlı hər hansı şübhəli pozuntuları soruşmaq, rəhbərlikdən məsləhət almaq və hesabat vermək üçün məsuliyyət daşıyırsınız. Carlsberg işçilərinin və ya nümayəndələrinin bu siyasəti pozan davranışlarda iştirak etdiyini görsəniz və ya şübhələnsəniz, bu barədə menecerinizə və ya uyğunluq nümayəndəsinə məlumat verməlisiniz. Bundan əlavə, işçilər, dəyər zəncirimizin üzvləri və fəaliyyət göstərdiyimiz icmalar anonim olaraq "Speak Up" xəttimizdən və veb-əsaslı hesabat alətimizdən istifadə edə bilərlər. Məsələlər barədə bizə məlumat verildikdə, onları bildirənlərin hüquqlarını qoruyacağıq və yaxşı niyyətlə məsələ qaldıran və ya istintaqa kömək edən hər kəsə qarşı hər hansı cəza və ya intiqam tədbirinə yol verməyəcəyik. "**Speak Up**" siyasətimiz işlərin necə araşdırıldığı barədə daha ətraflı məlumatı ehtiva edir.

## TƏRİFLƏR VƏ ƏSAS ANLAYIŞLAR

**Carlsberg Group-un Ərazisi**

Carlsberg Group-un törəmə müəssisələri tərəfindən birbaşa idarə olunan və ya icarəyə götürülən, yaxud Group adından tikinti və/və ya quraşdırma işlərinin aparıldığı istənilən yer.

**Böhran**

Planlaşdırılmamış və ya əvvəlcədən hazırlıq görülməmiş, yaxud hadisənin miqyasına uyğun hazırlığın kifayət olmadığı və nəticəsi təşkilatın nüfuzuna və strateji məqsədlərinə ciddi ziyan vura biləcək vəziyyət.

**Proseslərin təhlükəsizliyi**

Proseslərin təhlükəsizliyi təhlükəli materialların və ya enerjinin buraxılması ilə nəticələnə biləcək hadisələrin qarşısının alınması və nəzarət altına alınması ilə bağlıdır. Belə hadisələr zəhərlənmə təsirləri, yanğın və ya partlayışa səbəb ola bilər və nəticədə ağır xəsarətlərə, əmlaka ziyan dəyməsinə, istehsalın dayanmasına və ətraf mühitə mənfi təsirlərə gətirib çıxara bilər.

**ISO 45001 standartı**

Əməyin mühafizəsi və sağlamlıq üzrə idarəetmə sistemləri üçün beynəlxalq standartdır. Bu standart təşkilatlara sağlamlıq və təhlükəsizlik risklərini müəyyən etmək və nəzarətdə saxlamaq, qəzaların başvermə ehtimalını azaltmaq, qanunvericiliyin tələblərinə əməl etmək və əməliyyat fəaliyyətinin səmərəliliyini artırmaq üçün çərçivə təqdim edir.

**Xəsarət**

Qısa müddətli, tək bir hadisə və ya təsir nəticəsində bədəndə yaranan hər hansı yara və ya zədələnmə.

**Xəstəlik**

İş fəaliyyəti ilə əlaqəli olan, fizioloji funksiyalara, əhval-ruhiyyəyə, düşüncəyə və ya davranışa mənfi təsir göstərən hər hansı qeyri-normal fiziki və ya psixi sağlamlıq vəziyyəti.



# VƏZİFƏLƏR VƏ MƏSULİYYƏTLƏR

| VƏZİFƏ / AD | MƏSULİYYƏTLƏR |
|---|---|

**İcraiyyə Komitəsi Siyasət Sponsoru [Əməliyyat fəaliyyəti üzrə Baş İcraçı Vitse-Prezident (EVP)]**

- Qlobal Siyasət üzrə Sponsor strateji nəzarəti təmin edən yüksək vəzifəli rəhbərdir,
- zəruri resursların ayrılmasını təmin edir və siyasəti icraçı rəhbərlik səviyyəsində təşviq edir.
- Siyasət çərçivəsinin yekun təsdiqinə görə məsuliyyət daşıyır.

**Siyasət Sahibi [Qrup üzrə Sağlamlıq və Təhlükəsizlik]**

- Siyasət Sahibi Carlsberg Group-da sağlamlıq və təhlükəsizlik məsələləri üzrə İcraiyyə Komitəsi qarşısında ümumi məsuliyyət daşıyır, həmçinin Group üzrə sağlamlıq və təhlükəsizlik risklərinin lazımi qaydada nəzərə alınmasını və zərurət olduqda İcraiyyə Komitəsinə çatdırılmasını təmin edir.

**Siyasət məsələləri üzrə Ekspert [Group üzrə Sağlamlıq və Təhlükəsizlik]**

- Siyasət məsələləri üzrə ekspert (SME-Subject Matter Expert) siyasətin mövzusu üzrə dərin ixtisaslaşmış biliklər təqdim edir, onun hazırlanmasını, tətbiqini və davamlı şəkildə yenilənməsini dəstəkləyir.
- Siyasətə riayət olunmasına nəzarət edilməsinə və istisna hallarla bağlı göstərişlərin verilməsinə cavabdehdir.

**CCO /ölkə/ region/ funksiya səviyyələrində funksional rəhbərlər**

- Qlobal siyasətin yerli səviyyədə tətbiqinə, uyğunluğun qorunmasına və regional tələblərə uyğunlaşdırılmasına cavabdehdir. Siyasətin hazırlanması mərhələsində onun icra oluna bilməsini və regional tənzimləmələrlə uyğunluğunu təmin etmək məqsədilə məsləhətləşmələrə cəlb olunur.
- Nümunə göstərməklə liderlik etməyə, bu siyasətin və əlaqəli standartların tətbiq edilməsini və onlara riayət olunmasını təmin etməyə, habelə müvafiq bütün əməkdaşların siyasət və onun tələbləri barədə məlumatlandırılmasına cavabdehdir. Sağlamlıq və təhlükəsizlik risklərinin düzgün qiymətləndirilməsini, nəzarət edilməsini və çatdırılmasını, eləcə də bütün müvafiq işçilərin vəzifələrini təhlükəsiz şəkildə yerinə yetirmək üçün lazımi təlim keçməsini və müvafiq risklər və tətbiq olunan nəzarət tədbirləri barədə kifayət qədər məlumatlı olmasını təmin edir.

**Carlsberg Group-dakı bütün təşkilatlar, menecerlər və əməkdaşlar**

- Onlar gündəlik fəaliyyətlərində siyasətin mahiyyətini anlamaq və ona riayət etməklə bağlı məsuliyyət daşıyırlar.
- Siyasət yeniləmələri barədə məlumatlıdırlar və ona effektiv şəkildə riayət etməyi öyrənmək üçün təlim keçirlər.
- Bu siyasətə əməl etmək və hər hansı peşə sağlamlığı və təhlükəsizliyi hadisələrini, proses təhlükəsizliyi hadisələrini və standartlara uyğun olmayan şəraitləri bildirmək üzrə məsuliyyət daşıyırlar.
- Şübhə yarandıqda həmişə yerli Sağlamlıq və Təhlükəsizlik Mütəxəssisi ilə əlaqə saxlayın; lazım gəldikdə, o, "Group"un Sağlamlıq və Təhlükəsizlik şöbəsi ilə yoxlamanı həyata keçirəcək.



# NƏCƏ NƏZARƏT EDİRİK

**Biz öz kodekslərimizə və siyasətlərimizə riayət olunmasını daxili nəzarət komandamızla əməkdaşlıq şəraitində həyata keçirilən daxili nəzarət qiymətləndirmə proqramı vasitəsilə izləyirik.**

Bundan əlavə, risklər hər il müəyyən edilir və hər bölmə onları özü qiymətləndirir. Həmçinin, prioritetləşdirilmiş daxili audit proqramı və ya uyğunluq üçün xüsusi dərin araşdırmalar və təsadüfi yoxlamalar, ISO sertifikatlaşdırma orqanlarının xarici auditləri ilə birləşdirilərək müstəqil yoxlamanı təmin edir.

Əsas prinsiplərə riayət etməmək və ya uyğun risk azaldıcı tədbirləri həyata keçirməmək intizam tədbirlərinə səbəb ola bilər.

# İSTİSNALAR VƏ YAYINMALAR

İstisna halların mövcud olmadığı və ya Siyasət tətbiq edilmədiyi təqdirdə, bu Siyasətə heç bir istisna qəbul edilməyəcək. İstisna üçün hər hansı bir sorğu yazılı şəkildə Siyasət Sahibinə təqdim edilməlidir. Siyasət Sahibi hər bir sorğunu fərdi olaraq qiymətləndirəcək və qərar verəcək. Verilmiş istisnalar müvafiq şəkildə qeyd olunmalı və sənədləşdirilməlidir.



# SİYASƏTƏ YENİDƏN BAXILMASI

Bu Siyasət zəruri hallarda və ən azı ildə bir dəfə nəzərdən keçiriləcək. İcra Komitəsinin müvafiq siyasət sponsorunun təsdiqi ilə istənilən vaxt dəyeşiklik edilə bilər. Əgər bu siyasətin ingilis dilindəki versiyası ilə tərcümə edilmiş versiyası arasında hər hansı uyğunsuzluq yaranarsa, ingilis dilindəki versiya üstünlük təşkil edəcək.

# ƏLAQƏLİ STANDARTLAR VƏ TƏLİMATLAR

- Risklərin İdarə Edilməsi Təlimatı
- Müxtəliflik, Bərabərlik və İnklüzivlik Standartı

# DƏSTƏKLƏYİCİ ALƏTLƏR VƏ RESURSLAR

- Sağlamlıq və Təhlükəsizlik Standartlarının Qiymətləndirilməsi
- Sağlamlıq və təhlükəsizlik üzrə idarəetmə sistemi
- Group və yerli sağlamlıq və təhlükəsizlik təşkilatı
- Sağlamlıq və Təhlükəsizlik kampaniyaları və təlimləri

# ƏLAQƏ

Daha ətraflı məlumat üçün Group-un Sağlamlıq və Təhlükəsizlik şöbəsi ilə əlaqə saxlayın.

**Versiya: 1**
Qüvvəyə minmə tarixi: 7 Avqust 25
Növbəti baxış tarixi: 7 avqust 26
Siyasətin Sahibi:Kostas Sagias, Group –un Sağlamlıq və Təhlükəsizlik üzrə Direktoru
Təsdiq edən: Viktor Şevtsov, "Group" Təchizat Zənciri üzrə Baş İcraçı Vitse-Prezident

"Carlsberg Breweries A/S"

J.C. Jacobsens Gade 1,

1799 Kopenhagen V,

Danimarka